■ Ramin Əhmədoğlu

## Tamaşaçı

Bu gecə yuxuma gəlmişdin mənim
Bu gecə ömrümdə ən xoş gecəydi
Elə xoşbəxt idim ay ömrüm, günüm
Kâş, bütün həyatım belə keçəydi

Üzündə təbəssüm, qəlbində sevinc
Gülərək qaçırdın hey sağa, sola
Doğrudan da adam dayanarmı dinc
Ətrafda bu qədər gözəllik ola

Başının üstündə dövr edən mələk
Səni pis gözlərdən sanki qorurdu
Saçını darayan xəfif bir külək
Sənin gəlişinə büsat qururdu

Hardasa bir bülbül ahəstə dinib
Nəğmələr qoşurdu həvəslə yenə
Bir dəstə kəpənək çəmənə enib
Çələng toxuyurdu çiçəkdən sənə

Göy də sevinirdi elə bil yer də
Səmadan torpağa sevinc yağırdı
Boynunu qaldırıb bənövşələr də
Həsədlə gəzdiyin yola baxırdı

Alıb aparmışdı bu yuxu məni
Yarımçıq oyanmaq bəlkə də günah
Orda şən, gülərüz görüncə səni
İnan, istəmirdim açılsın sabah

Nə həsrət çəkirdim ah, necə bilsən
Sənli yuxuların çoxdan acıydım
Bu ʻʻağ-qara filminʼʼ baş rolunda sən
Mən isə yeganə tamaşaçıydım